**Brayan Treysi**

# Məqsədlər

## İstədiyiniz hər bir şeyi düşündüyünüzdən daha tez necə əldə etmək olar

Tərcüməçi:
Aqil Hacıyev

qanun nəşriyyatı

**Brian Tracy**

# Goals!

## How to Get Everything You Want – Faster Than You Ever Thought Possible

“Sehrli dərslik” adlandırılan bu kitabda sınaqdan çıxmış praktiki məsləhətlər yer alıb. Siz bu məsləhətlərin köməyi ilə qısa müddətdə ağlagəlməz uğurlar əldə edəcəksiniz. İrəliləyiş sürətiniz sizi və ətrafınızı təəccübləndirəcək. Sadə və asanlıqla tətbiq olunan metodların köməyi ilə daha zəngin olacaqsınız. İndiyə kimi yaşadığınız yoxsulluq və məyusluğu rifah və məmnunluq əvəz edəcək. Kitabın müəllifi şəxsi inkişaf üzrə dünyanın ən nüfuzlu trenerlərindən biridir. Bu mövzuda yazdığı kitablar onu dünyanın ən çox satılan müəllifləri sırasına daxil edib. Onun əsərləri ciddi araşdırmaların nəticəsidir. Uğurun ən qısa yolu sınaqdan çıxmış prinsiplərə əsaslanan praktiki məsləhətlərdən keçir.

**Brian Tracy GOALS**
**Brayan Treysi MƏQSƏDLƏR**
Bakı, Qanun Nəşriyyatı, 2023, 256 səh.

Janr: non-fiction/özünüinkişaf
Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 11.11.2023

Naşir: Şahbaz Xuduoğlu
Tərcüməçi: Aqil Hacıyev
Texniki redaktor: Anar Əli
Mətn dizaynı: Rahilə Şamilqızı
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-36-265-7

© Qanun Nəşriyyatı, 2018; 2022; 2023
© Brayan Treysi, 2010

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım
hüquqları Qanun Nəşriyyatına məxsusdur.
Kitabın təkrar və hissə-hissə nəşri «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» Azərbaycan Respublikasının Qanununa ziddir.

Yaxşı dost, dahi amerikalı, qeyri-adi biznesmen,
ən yaxşı satış mütəxəssislərindən biri və ətrafındakı
bütün insanları ruhlandıran Rik Metkalfa həsr olunur.

Həyatda olub bu kitabı oxumağını arzu edərdim.
Sən bizi çox tez tərk etdin.

# Ön söz

Bu kitab daha sürətlə irəliləmək istəyən ambisiyalı insanlar üçün yazılmışdır. Əgər siz də özünüzü belə insanlardan hesab edirsinizsə, deməli, bu kitab məhz sizin üçündür. Kitabda rast gələcəyiniz ideya və fikirlər vacib məqsədlərinizə daha tez çatmaqda kömək edərək illərlə ağır zəhmət çəkməkdən sizi xilas edəcək.

Mən 24 ölkədə 2 000 dəfə, ümumilikdə, 24 mindən çox dinləyicidən ibarət auditoriya qarşısında çıxış etmişəm. Beş dəqiqəlik seminarlarım da olub, beş günlük də. Mən hər dəfə müəyyən auditoriya üçün müzakirə edilən məsələ mövzusunda ən yaxşı ideyaları tapıb bölüşməyə səy göstərmişəm. Bütün bu mühazirə və seminarlardan sonra indi mənə sizinlə yalnız beş dəqiqə danışmaq və daha uğurlu olmağınız üçün tək bir məsləhət vermək şərti qoyulsaydı, deyərdim: “Məqsədlərinizi kağıza yazın, onlara nail olmaq üçün plan qurun və hər gün bu plan üzərində işləyin.”

Bu məsləhətə əməl etsəniz, indiyədək öyrəndiyiniz bütün metod və üsulların hamısından daha effektiv olar. Universitet bitirmiş insanların çoxu bu sadə ideyanın dördillik ali təhsildən daha dəyərli olduğunu bildirirlər. Bu ideya mənim və milyonlarla digər insanların həyatını dəyişmişdir. O sizin də həyatınızı dəyişəcək.

# Dönüş nöqtəsi

İllər öncə bir qrup uğurlu insan həyat təcrübələrini bölüşmək üçün Çikaqoda yığışdılar. Onların hamısı milyoner və multimilyonerlər idi. Bütün uğurlu insanlar kimi, onlar da malik olduqları hər bir şeyə və nailiyyətlərinə görə çox minnətdarlıq duyurdular. Həyatda bu qədər nailiyyəti nəyin hesabına əldə etdiklərini müzakirə edərkən aralarındakı ən müdrik adam demişdi: "Uğur məqsəddir, yerdə qalan hər şey isə təfsirdir."

Sizin vaxtınız və həyatınız məhduddur. Ən böyük vaxt itkisi və həyatın hədər yerə sərf edilməsi bir neçə aya əldə edə biləcəyiniz şeylər üçün illər sərf etməkdir. Bu kitabda verilən sınaqdan keçmiş və son dərəcə praktiki olan məsləhətlərə əməl etməklə siz çox qısa müddətdə düşündüyünüzdən daha artıq nailiyyət əldə edəcəksiniz. İrəliləyiş sürətiniz sizi və ətrafınızdakı insanları təəccübləndirəcək. Bu sadə və asanlıqla tətbiq edilə bilən metodlara əməl etməklə qısa müddətdə indiki vəziyyətinizdən daha zəngin ola biləcəksiniz. İndiyə kimi yaşadığınız yoxsulluq və məyusluğu rifah və məmnunluq əvəz edəcək. Dost və qohumlarınızdan daha irəli gedəcək və tanıdığınız bütün insanlardan daha çox nailiyyət əldə edəcəksiniz.

Mühazirə, seminar və konsultasiyalarımda, ümumilikdə, iki milyondan çox insanla işləmişəm. Dəfələrlə əmin olmuşam ki, aydın məqsədlərə malik adi insan nə istədiyini dəqiqləşdirə bilməyən fitri istedada malik insandan qat-qat artıq nailiyyət əldə edir.

Mənim şəxsi missiya şüarım illər ərzində dəyişməz qalmışdır: “İnsanlara öz məqsədlərinə mənim köməyim olmadan nail ola biləcəklərindən daha tez zamanda nail olmağa kömək etmək”.

Bu kitab uğur, nailiyyət və məqsədə nail olmaq sahəsində əldə etdiyim biliklərin seçilmiş məcmusudur. Kitabda təsvir edilən üsulları tətbiq etməklə siz həyatın ön cərgələrinə çıxacaqsınız. Bu kitab sizin üçün indiki yerinizdən olmaq istədiyiniz yerə aparan yolda bələdçi olacaq. Kitabı yazmaqda məqsədim dostlarıma, yaxınlarıma və oxucularıma onların nailiyyətlərini sürətləndirəcək və sınaqdan keçmiş yol göstərməkdir.

Xoş gəlmisiniz! Yeni böyük macəra başlayır.

# Giriş

İndiki dövr yaşamaq üçün heyrətamiz zamandır. Kreativ və qətiyyətli insanların məqsədlərinə nail olmaları üçün hələ heç vaxt bu qədər imkan olmamışdır. İqtisadiyyatın və şəxsi həyatın eniş-yoxuşlarına rəğmən, biz rifah və sülhün hökm sürdüyü bir eraya qədəm qoyuruq.

1900-cü ildə Amerikada 5 min milyoner vardı. 2000-ci ildə isə onların sayı 5 milyona çatırdı və onların çoxu öz hesabına varlanmış insanlardır. Ekspertlərin bildirdiyinə görə, iyirmi ildən sonra Amerikada 20 milyon milyoner olacaq. Sizin məqsədiniz onların sırasına qatılmaq olmalıdır. Bu işdə kitab sizə yardımçı olacaq.

## Asta başlanğıc

On səkkiz yaşımda ikən kolleci yarımçıq tərk etdim. İlk işim kiçik hoteldə qab yumaqdan ibarət oldu. Sonra avtomobil yumağa başladım və ardından sanitar xidmətdə döşəməyuyan işlədim. Növbəti beş il ərzində müxtəlif fiziki işlərdə çalışdım. Dəyirman və fabriklərdə, əkin sahələrində və fermalarda işlədim. Limanlarda yük daşıdım. Tikintidə fəhlə və Norveç gəmiçilik şirkətində matros işlədim. Çox zaman öz avtomobilimdə və ya

ucuz hotellərdə gecələyirdim. İyirmi üç yaşım olarkən fermada işləyirdim, ot tayasının üstündə yatır və fermerlərin yedikləri yeməklərdən yeyirdim. Mənim təhsilim və xüsusi bacarığım yox idi, buna görə də mövsüm bitdikdən sonra növbəti dəfə işsiz qaldım.

Artıq fəhlə işi tapmadıqda evdən-evə, ofisdən-ofisə satışla məşğul olan şirkətdə satış nümayəndəsi işləməyə başladım. Bəzən, bircə məhsul satıb gecələmək üçün hotel pulu qazanmaqdan ötrü bütün günü işləməli olurdum. Bu, həyatın bir o qədər də uğurlu başlanğıcı deyildi.

### Həyatımın dəyişdiyi gün

Sonra bir gün kağız parçası götürüb özüm üçün məqsəd yazdım. Bu, satış dövriyyəmi artırıb aylıq gəlirimi 1000 dollara çatdırmaq idi. Kağızı qatlayıb bir kənara qoydum və sonra heç zaman onu tapmadım. Lakin bir ay sonra mənim bütün həyatım dəyişdi. Bu müddət ərzində gəlirimi üç dəfə artıran satış texnikası öyrəndim. Bizim şirkətin sahibi şirkətini şəhərə yenicə gəlmiş bir biznesmenə satdı. Mən öz məqsədimi yazandan otuz gün sonra şirkətin həmin yeni sahibi məni yanına çağırıb aylıq 1000 dollar əmək haqqı ilə satış şöbəsinə rəhbərlik etməyi və satış dövriyyəmi bu qədər artıran satış texnikamı digər satış nümayəndələrinə də öyrətməyi təklif etdi. Mən onun təklifini qəbul etdim və o zamandan etibarən həyatım daha heç vaxt əvvəlki kimi olmadı.

On səkkiz ay ərzində mən bir neçə dəfə işimi dəyişdim. Adi satıcıdan satış menecerinə çevrildim. Doxsan beş satış nümayəndəsindən ibarət satış şöbəsi formalaşdırdım. Növbəti yemək pulu üçün narahat olan zavallıdan cibi əsginaslarla dolu olan menecerə çevrildim.

Öz əməkdaşlarıma məqsədlərini kağız üzərində yazmağı və daha effektiv satışlar etməyi öyrətməyə başladım. Çox qısa bir vaxt ərzində onlar gəlirlərini iki dəfə, üç dəfə və nəhayət, on dəfə artırdılar. İndi onların çoxu milyoner və multimilyonerdirlər.

Qeyd etməliyəm ki, 20 yaşımda ikən həyatım davamlı yüksəlişlərdən ibarət deyildi. O enişli-yoxuşlu idi, bəzən uğur, bəzən isə uğursuzluqla üzləşirdim. Səksəndən artıq ölkədə işləmişəm, yaşamışam və səyahət etmişəm, fransız, alman və ispan dillərini öyrənmişəm, iyirmi müxtəlif sahədə fəaliyyət göstərmişəm.

Təcrübəsizlik və bəzən, sadəcə, axmaqlıq üzündən bir neçə dəfə əldə etdiyim hər bir şeyi itirmiş və yenidən başlamalı olmuşam. Hər dəfə bu baş verərkən mən bu kitabda izah edəcəyim üsullarla, kağız parçasına yeni məqsədlər yazmaqla yenidən başlamışam.

Bir neçə il nailiyyət və uğursuzluqlardan sonra məqsədə nail olmaq sahəsində öyrəndiyim hər şeyi sistemləşdirmək qərarına gəldim. İdeya və strategiyaları bir araya toplamaqla məqsəd qoymaq üsulu yaratdım və hər gün ona riayət etməyə başladım. Növbəti bir il ərzində həyatım yenidən dəyişdi. Həmin ilin yanvar ayında mən kirayə mebellərlə döşənmiş kirayə evdə yaşayırdım. Otuz beş min dollar borcum vardı və kreditlə aldığım "ikinci əl" avtomobil sürürdüm. Artıq dekabr ayında isə 100 000 dollara aldığım evdə yaşayır və yeni "Mercedes" sürürdüm, borcumu isə təbii ki, ilk növbədə ödəmişdim. Bütün bu xərclərdən sonra mənim bank hesabımda əlli min dollarım vardı.

Sonra mən uğur məsələsinə, həqiqətən, ciddi yanaşdım. Anladım ki, bu "məqsəd yazmaq" işi son dərəcə güclü bir şeydir. Məqsəd qoymaq və ona nail olmaqla bağlı kitablar oxumağa, praktikada ən effektiv tətbiqə malik ideyaları ortaya çıxarmağa, yeni üsullar işləyib hazırlamağa minlərlə saat vaxt sərf etdim.